

RƏHMAN BAYRAM

## QURUNUN ODUNA YAŞ DA YANMASIN

Dünya məhv eləsin silahlarını,
Ölən uşaqların günahı nədir?
Yoxsa böyüklərin günahlarını,
Uşaqlar boynuna götürüb gedir.

Allah ölənlərdən ayrılan ruhu,
Yenidən doğulub gələnə verir.
Torpağın üstünü yaşayanlara,
Torpağın altını ölənə verir.

Alsın cəzasını "silahlı şeytan"
Məsumun yolunda daş dayanmasın.
Cənnət əməllərə olsun ərmağan,
Qurunun oduna yaş da yanmasın.

## HAQSIZ DÜNYA

Soruşdu anadan ac qalan bir qız,
Ana, varmı görən cənnətdə çörək?
Varsa, biz də ölək, doysun qarnımız,
Etinasız bəşər məhv olsun gərək.

Nədən fəqirlərə rəhmin yox, dünya?
Niyə yıxa bilmir sevgi tamahı?
Nədən çoxun acdır, azın tox, dünya?
Niyə yaxmır səni acların ahı?

Yoxsa Kainatı almısan ələ,
Hər yerdə keçirmi rüşvətin sənin?
Acları toxlara etmisən kölə,
Bumu ədalətin, qiymətin sənin?

## GÖZƏL BAX

Bir insanı gözəl görmək istəsən,
Gözəl düşün, gözəl anla, gözəl bax.
Məftunu olduğun yarın könlünə,
Gözəl süzül, gözəl damla, gözəl ax.

Sevən qəlbə hökm olunmaz, bağışla,
Yanan ürək sönməz qarla, yağışla,
Bu təşnə könlümü odlu baxışla,
Gözəl yandır, gözəl dağla, gözəl yax.

Ağıl başda zinət, qeyrət canında,
Sevda pünhan gələr, çağlar qanında,
Ruhun həsrət dolu asimanında,
Gözəl parla, gözəl gurla, gözəl çax.

## KEÇİBDİR

Adam var, həyatda varlanmaq üçün,
Vicdandan, qeyrətdən, ardan keçibdir.
Adam var, namusu qorumaq üçün,
Bir ömür yığdığı vardan keçibdir.

Eşq adlı ilməsən, toxunmamısan,
İlahi əsərsən, oxunmamısan,
Bir dəfə əlimə toxunmamısan,
Atəşin kömlümə hardan keçibdir?

Bu eşqə düşəli neçə illərdi,
Rəhman nə bir çiçək, nə bir gül dərdi,
Soruşsan hardandı bu qədər dərdi?
Həsrəti ərmağan yardan keçibdir.

# SƏNİ SEVDİYİM QƏDƏR

Bir divanı sevsəydim,
Səni sevdiyim qədər.
Çiçək açardı divar,
Olmazdı eşqim hədər.

Mavi dənizi sevsəm,
Səni sevdiyim qədər.
Ləpələr dilə gəlib,
Vüsal nəğməsi ötər.

Bir çiçəyi sevsəydim,
Səni sevdiyim qədər.
Solardı həsrətimdən,
Olardı məndən betər.

Yaşıl çəməni sevsəm,
Səni sevdiyim qədər.
O gülşən sinəsində,
Sevda gülləri bitər.

Hamı sevsə, Vətəni,
Mənim sevdiyim qədər.
Tez sağalar yarası,
Dərdi əriyib itər.

# "ACLIQ" VİRUSU

İnsanı öldürən bir virus da var,
Susur bəşəriyyət, görsə də belə.
"Aclıq" virusudur, yoxsullar tutar,
Zənginlərə yaxın gəlməyib hələ.

Dərmanı varlıda olan xəstəlik,
İldə fəqirlərdən neçə can alır.
Bir tikə çörəklə solan xəstəlik,
İnsanlıq adına hey kölgə salır.

Aclıq neçə ömrü çatdırıb sona,
Biganə olubdu həmişə dünya.
Varlıya, kasıba baxmır "korona",
Onunçün düşübdü təşvişə dünya.

Doysaydı ac qalan onlarla ölkə,
İndi dərmanlara xərclənən pulla.
Allah bu bəlanı verməzdi bəlkə,
Yəqin ki, düşməzdi bəşər bu hala.

# DEMƏLİ

İnsanın içində sevgi ölürsə,
Ruhu da dünyadan köçür, deməli.
Sevgisini insanlarla bölürsə,
Cənnət şərbətini içir, deməli.

Yetimə, fəqirə süfrə açırsa,
Zülmət könüllərə işıq saçırsa,
Xeyrə könül verib, şərdən qaçırsa,
Yaxşını yamandan seçir, deməli.

Kim ki, anasına qulunam deyir,
Ataya baş əyib, təzim eyləyir,
Haramı sevməyib, halalı yeyir,
O kəs imtahandan keçir, deməli.

# BƏSIMDIR

Allahdan şan-şöhrət arzulamıram,
Taleyim üzümə gülsə, bəsimdir.
Sevdalı könlümə qənim kəsilən,
Həsrətim əriyib ölsə, bəsimdir.

Yalvarıb rəbbimə dilək verdiyim,
Çəkib qayğısını ürək verdiyim,
Bəsləyib, böyüdüb çörək verdiyim,
Övladlar qədrimi bilsə, bəsimdir.

Kədər ürəyimi yaxdığı zaman,
Dərdim şimşək olub çaxdığı zaman,
Həyat məngənədə sıxdığı zaman,
Dostlarım köməyə gəlsə, bəsimdir.

Tanrım pis əməldən uzaq eyləsə,
Eşqimi gözümə çıraq eyləsə,
Haramı nəfsimə yasaq eyləsə,
Halalı mənimlə bölsə, bəsimdir.

Torpaq həsrətiylə ağlayan elim,
Qəriblik köksünü dağlayan elim,
Qələbə günündə, çağlayan elim,
Sevinc göz yaşımı silsə, bəsimdir.